# Hüseyn Cavidin Ev Muzeyi VIII Bakı Beynəlxalq Kitab Sərgisinin iştirakçısıdır

Bu gün Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində VIII Bakı Beynəlxalq Kitab Sərgisinin açılışı olub. Sərgidə Hüseyn Cavidin Ev Muzeyi üçün ayrılmış xüsusi guşədə muzeyin son illərdəki nəşrlərindən ibarət materiallar iştirakçılara təqdim olunub. Sərgilənən çoxcildlik, kitab, foto albom, təqvim, audio-video materiallardan ibarət 50 adda müxtəlif nəşrlərdən 30 cildlik "Cavidşünaslıq" araşdırmalar toplusu, 13 cilddə "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" multidissiplinar mənbə-tədqiqatlar toplusu, "Sözləri Hüseyn Cavidindir" not kitabı, Hüseyn Cavidin "Topal Teymur" əsərinin üç dildə: ingilis, rus və Azərbaycan dillərində nəşri tamaşaçıların xüsusi marağına səbəb olub.




Müxtəlif ölkələrdən kitabşünas, biblioqraf, naşir və bibliofillərin, elm və mədəniyyət xadimlərinin qatıldığı möhtəşəm kitab sərgisində muzeyin 2022-ci ildə çap etdirdiyi yeni nəşrlər də nümayiş etdirilib. "Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən 2022-ci il təqvimi" və dahi şairin 140 illiyi münasibətilə yeni redaksiyada işıq üzü görən "Cavid hikməti" seçmə aforizmlər toplusu daha çox maraq doğurub.

Açılış mərasimində iştirak edən ölkəmizin dövlət rəsmiləri, həmçinin Mədəniyyət Nazirliyinin rəhbər şəxsləri, görkəmli alimlər, yazarlar, mətbuat nümayəndələri də Hüseyn Cavidin Ev Muzeyinin sərgi guşəsi ilə tanış olub. Muzeyin baş direktoru, əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı sərgi haqqında mötəbər qonaqlara ətraflı məlumat verib. Ən yaddaqalan hadisə Azərbaycanın Əməkdar artisti, Bakı Bələdiyyə Teatrının aktyoru Aydın Əliyevin canlandırdığı Hüseyn Cavidin muzeyin guşəsini ziyarət etməsi olub.

Qeyd edək ki, maraqlananlar 6-9 oktyabr 2022-ci il tarixlərində davam edəcək VIII Bakı Beynəlxalq Kitab Sərgisi ərəfəsində Hüseyn Cavidin Ev Muzeyinin nəşrləri ilə daha yaxından tanış ola, 7 oktyabr 2022-ci il tarixində saat 16:00-da "Bül-bül" təqdimat zonasında "Cavid hikməti: seçmə aforizmlər" miniatür kitabının təqdimat mərasimində iştirak edə bilər.